

# Ordumuzun zəfər yürüşü davam edir

***Azərbaycan Ordusu tərəfindən həyata keçirilən uğurlu əks-hücum əməliyyatları bu gün də davam etməkdədir. Silahlı Qüvvələrimizin sarsıdıcı zərbələri nəticəsində həm canlı qüvvə, həm də texnika baxımından böyük itkilər verən düşmən əsgərləri geri çəkilərək döyüş mövqelərini qoyub qaçmaqdadırlar. Bununla yanaşı, düşmən döyüşdə uduzduğunu anladığına görə, təxribatlara əl atmaqla, mülki vətəndaşlarımızı atəşə tutmaqla, infrastrukturumuzu dağıtmaqla qeyri-insani xislətini, beynəlxalq hüquqa, ali bəşəri dəyərlərə zərrə qədər də olsun hörmət etmədiyini bir daha təsdiqləyir. BMT-nin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dörd qətnaməsinin heç birini yerinə yetirməyən işğalçı ölkə hazırda mülki insanları atəşə məruz qoymaqla yeni-yeni cinayətlər törədir. Lakin düşmən dövlət bilməlidir ki, Azərbaycan Ordusu erməni faşizminin layiqli cavabını verəcək və onu etdiyi hər cinayətə, vəhşiliyə görə cəzalandıracaq.***

Prezident, Ali Baş Komandan İlham Əliyev oktyabrın 21-də özünün rəsmi "Twitter" səhifəsində rəşadətli Azərbaycan Ordusu tərəfindən Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndlərinin işğaldan azad edilməsi xəbərini bildirib.

Dövlətimizin başçısı, eyni zamanda, Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər, Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndlərinin düşməndən təmizləndiyi barədə məlumatı da xalqımız tərəfindən böyük sevinclə qarşılanıb.

Ermənistan tərəfi cəbhədə ordumuzun əks-həmlələrinə tab gətirməyib uduzduğuna görə, təxribat əməllərindən də geri çəkilmir. Belə ki, oktyabrın 21-i gün ərzində və 22-sinə keçən gecə düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub. Qubadlı istiqamətində Ermənistan silahlı qüvvələrinin müdafiə olunan bölmələri şəxsi heyət və hərbi texnikada itki verərək vacib yüksəklik və bir sıra mövqelərdən geri çəkilməyə məcbur ediliblər. Xocavənd istiqamətində mövqe tutan 155-ci artilleriya alayının D-20 batareyasına ağır zərbə vurulub. Hadrut qəsəbəsindən şimalda yerləşən düşmənin artilleriya bölmələrinə yeni gətirilmiş könüllülər atəş mövqelərini tərk edərək qaçıblar. Ağdərə istiqamətində yerləşən 5-ci dağatıcı alayın müdafiə sahəsinə endirilən artilleriya zərbələri nəticəsində düşmən ölən və yaralanan olmaqla çoxlu sayda itki verib. Alayın 3-cü taboruna məxsus yeraltı sığınacağın sıradan çıxarılması səbəbindən düşmənin şəxsi heyətində xeyli itki olub. 543-cü alayın müdafiə sahəsi də ordumuzun güclü atəşi ilə dağıdılıb.

Hazırda Silahlı Qüvvələrimizin bütün bu sarsıdıcı zərbələri hesabına Ermənistan silahlı qüvvələrinin şəxsi heyəti döyüşlərdə iştirakdan imtina edir. Müdafiə Nazirliyinin mətbuat xidmətinin məlumatına görə, düşmənin 543-cü alayının ehtiyat bölmələrinin hərbi qulluqçularının Dağlıq Qarabağa getməkdən imtina etdikləri üçün döyüş mövqelərinə kənd sakinlərinin cəlb edildiyi məlum olub. Eyni zamanda, yerli sakinlər tərəfindən gənclərin döyüşlərdə iştiraklarına etiraz əlaməti olaraq bəzi avtomobil yolları bağlanıb.

Hadrutdan şimaldakı müdafiə zolağında və Ağdərədəki 5-ci dağatıcı alayın müdafiə sahəsindəki hərbçilərə qohumları və tanışları telefonla zəng edərək onlara silahı yerə qoyub geri çəkilmələri barədə fikirlərini çatdırırlar. İşğalçı ordunun hərbi bölmələrində ərzaq, yanacaq və döyüş sursatının çatışmadığı barədə də məlumat verilir.

Artıq azğınlaşan düşmən Ermənistandan respublikamızın cəbhə xəttindən kilometrlərlə uzaq ərazisini əməliyyat-taktiki raket kompleksindən ballistik raketlərlə atəşə tutmaqda davam edir. Qəbələ, Kürdəmir və Siyəzən istiqamətlərdə raketlərin buraxılması bunun bariz ifadəsidir.

Erməni faşistlərinin beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq döyüş əməliyyatlarının aparıldığı bölgəyə aidiyyəti olmayan, Azərbaycanın ikinci böyük şəhəri Gəncənin mülki əhalisinin sıx yaşadığı məntəqələrinə, eyni zamanda, ölkəmizin əsrlərdən bəri qorunub saxlanan tarixi məkanlarına zərbələr endirmələri təsadüfi deyil. Belə ki, Azərbaycan əsgəri ilə üz-üzə döyüşdən qaçan düşmən öz heyfini mülki insanlardan, dünya və ölkə əhəmiyyətli tarixi abidələrimizdən, mühüm önəm daşıyan sosial infrastrukturdan çıxır.

Bu gün Ermənistanın terrorçu və antiinsani mahiyyəti işğalçı ölkənin yalnız Azərbaycan üçün deyil, bölgədəki hər bir dövlət üçün təhdid və təhlükə mənbəyi olmasından xəbər verir. Ona görə də region dövlətləri tərəfindən də bu, aydın dərk edilməlidir. Onlar anlamalıdırlar ki, qonşu dövlətlərə qarşı davamlı şəkildə ərazi iddiaları irəli sürən, ərazisində terror təşkilatları yerləşdirən Ermənistan bölgə üçün də böyük təhlükədir. Region dövlətləri də Azərbaycanın haqq işini tam dəstəkləməli, terrorçu Ermənistana təzyiq göstərməklə onun neytrallaşdırılmasına nail olmalıdırlar. Regionda sülhü və təhlükəsizliyi təmin etməyin yeganə yolu məhz budur.

***V.BAYRAMOV, "Xalq qəzeti"***

Xalq qəzeti 2020.- 23 oktyabr.- S.5.